# Ərazi nümayəndəliyində hesabat yığıncağı

Bum qəsəbə İnzibati Ərazi Nümayəndəliyində 2014-cü ildə görülmüş işlərə dair hesabat yığıncağı keçirilmişdir. Hesabat məruzəsi ilə ərazi nümayəndəsi Eynulla Məmmədov çıxış etmişdir. Məruzədə qeyd olunmuşdur ki, bu gün Azərbaycan Respublikası iqtisadiyyatı sürətlə inkişaf edən dünya dövlətlərindən birinə çevrilməkdədir. Ümummilli liderin siyasi kursunun davamçısı Prezident İlham Əliyev bütün sahələrdə ulu öndərin siyasətini uğurla davam etdirir. Azərbaycan indi beynəlxalq arenada öz nüfuzu və sözü ilə seçilən bir dövlət kimi tanınır.

Məruzəçi bildirmişdir ki, 2014-cü il respublikamız üçün uğurlu olduğu kimi, eləcə də Qəbələ rayonunun inzibati ərazi dairələrindən biri olan Bum qəsəbəsi üçün də uğurlu olmuşdur. Qeyd edilmişdir ki, qəsəbədə bir tam orta, bir ümumi orta məktəb, bir bağça, bir qəsəbə yaradıcılıq evi, bir sıra ticarət, ictimai-iaşə obyektləri fəaliyyət göstərir. Büdcədən maliyyələşən təşkilatlarda işləyən işçilərin əmək haqqlarının vaxtında verilməsi diqqət mərkəzində olmuşdur.

Hesabat dövründə nümayəndəlikdə gənclərin ərizəsinə əsasən 53 nigah rəsmiləşdirilib və 88 körpəyə doğum haqqında şəhadətnamə verilmişdir. Qəsəbədə YAP-ın 115 üzvü olduğu qeyd edilmişdir ki, onlar əsasən gənclərdən ibarətdir.

Toplantıda qəsəbə tam orta məktəbin direktoru Məlahət Dadaşova, qəsəbə ağsaqqalı Cavan Bəkirov, qəsəbə ziyalısı Emin Ədilov, qəsəbə sakini Şahid Rəşidov, müəllim Tofiq Qaragözov və başqaları çıxış etmişlər. Onlar müvəffəqiyyətlərdən və problemlərdən söhbət açmışlar. Qeyd olunmuşdur ki, orta məktəb binasının, qəsəbə daxili yolların, elektrik dirəklərinin təmirinə ehtiyac vardır. Qəsəbə həkim məntəqəsinin köhnə binada yerləşməsi, qaz xəttinin çəkilməsi işinin ləngiməsi məsələlərinə də toxunulmuşdur. Sonda müvafiq qərar qəbul olunmuşdur.

# Təqdimolunma toplantısı

Respublikamızda keçirilən bələdiyyə seçkiləri mütəşəkkil sürətdə başa çatmışdır. Səsvermə zamanı seçicilər öz layiqli namizədlərinə səs vermiş və bələdiyyə şurasının üzvləri seçilmişdir. Hər yerdə olduğu kimi, bu günlərdə Bum qəsəbəsində də bələdiyyə şurasının üzvləri öz sədrlərini seçmişlər. Bum qəsəbə bələdiyyə şurasına sədr Həsənov Əddin Vəliyyəddin oğlu seçilmişdir.

Bu günlərdə qəsəbə ərazi nümayəndəliyində bələdiyyə şurası sədrinin təqdim olunma toplantısı keçirilmişdir. Toplantıda qəsəbə ziyalıları, ağsaqqallar və ayrı-ayrı müəssisələrin rəhbərləri iştirak etmişlər. Ərazi nümayəndəsi Eynulla Məmmədov toplantını açaraq qəsəbədə son illər görülmüş və görüləcək işlərdən danışmışdır.

Qəsəbə tam orta məktəbin müəllimi Tofiq Qaragözov, uşaq bağçasının müdiri Rahilə Sədirova, qəsəbə məscidi dini icmasının sədri Ayaz Osmanov, qəsəbə sakini Həmid Umarov və başqaları çıxış edərək yeni seçilmiş bələdiyyə şurasının sədri Əddin Həsənovu təbrik etmiş, ona gələcək işlərində uğurlar arzulamışlar.

**Emin BARATOĞLU.**

# Gənclər cəmiyyətin avanqard qüvvəsidir

Gənclər hər bir millətin gələcəyini və inkişaf yolunu müəyyənləşdirən, eyni zamanda cəmiyyətin ictimai-siyasi həyatında yaxından iştirak edən aparıcı təbəqədir. Fərəhli haldır ki, hazırda Azərbaycan gəncliyi ictimai-siyasi həyatımızın bütün sferalarında müsbət fəaliyyəti ilə seçilir, iqtisadi, humanitar, sosial tədbirlərin həyata keçirilməsində öz sözünü deyir.

Ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbilə hakimiyyətə qayıdışından sonra ölkəmizdə gənclər hərəkatı yeni vüsət almış, gənclərin sosial problemlərinin həlli istiqamətində, onların asudə vaxtının və istirahətinin səmərəli təşkili məqsədilə müvafiq sərəncamlara imza atılmışdır. Ulu öndərin uzaqgörən siyasəti və təşkilatçılığı ilə 1994-2003-cü illərdə gənclər siyasətinin hüquqi bazası yaradılmış, bu sahədə əsas vəzifələr və istiqamətlər müəyyənləşdirilmişdir. 1996-cı il fevralın 2-də müstəqil Azərbaycan Respublikası Gənclərinin I Forumu keçirilmişdir. Gənclərin həyatında çox önəmli və yaddaqalan bir hadisəyə çevrilən forumdan sonra ölkədə gənclərə yeni münasibət açıq-aydın hiss olundu. Hər il fevral ayının 2-nin Azərbaycanda Gənclər Günü kimi qeyd olunması barədə sərəncam imzalayan ümummilli lider bəyan etmişdir ki, «biz dövlətin və cəmiyyətin idarə edilməsində gənc nəslin qüvvəsinə arxalanacaq, onların imkanlarından maksimum istifadə edəcəyik». Bu fikir ölkə gəncləri qarşısında geniş imkanlar açdı və onlar mühüm dövlət və hakimiyyət orqanlarında məsul vəzifələrə irəli çəkildilər.

Prezident cənab İlham Əliyev də son II ildə gənclər siyasətini uğurla davam etdirmişdir. Gəncləri cəmiyyətin avanqard qüvvəsinə çevirmək məqsədilə 2005-ci ildə «Azərbaycan gəncliyi Dövlət Proqramı (2005-2009-cu illər)» qəbul edilmiş və mühüm tədbirlər həyata keçirilmişdir. Bu proqrama əsasən gənclər bu gün dövlət orqanlarında, Milli Məclisdə, bələdiyyələrdə, biznes strukturlarında və s, sahələrdə layiqincə təmsil olunur və cəmiyyətin inkişafına öz töhfələrini verirlər.

Gənclərə, gələcək nəslə çox böyük önəm verən Prezident İlham Əliyevin sərəncamı ilə 2007-ci ilin «Gənclər ili» elan edilməsi, «Azərbaycan gəncliyi Dövlət Proqramı»nın təsdiqi, Gənclər Fondunun yaradılması, gənclər, onların sosial müdafiəsi ilə bağlı müxtəlif sərəncamları imzalaması gənclərə olan qayğının bir hissəsidir.

Gənclər Fondu artıq dördüncü ildir ki, gənclərə dəstək verir, onların ideyalarını və təşəbbüslərini reallaşmağa əsaslı şərait yaradır. Qısa müddətdir fəaliyyətə başlamasına baxmayaraq Gənclər Fondu gənclər arasında kifayət qədər tanınıb. Bu qısa zaman kəsiyində Gənclər Fondu bir sıra əhəmiyyətli məsələləri həll etmiş, 8 iyun 2012-ci il tarixindən etibarən rəsmən fəaliyyətə başlamışdır. Elə həmin tarixdə fond ilk qrant müsabiqəsini elan etmişdir. Bu günə qədər elan edilmiş, qrant müsabiqələri üzrə fonda gənclərdən və gənclər təşkilatlarından xeyli sayda müraciət daxil olmuş və onların böyük hissəsi maliyyələşdirilmişdir. Gənclər fondunun fəaliyyəti əsasən Azərbaycanda vətənpərvər, sağlam düşüncəli yeni nəslin yetişdirilməsi məqsədilə gənclərin azərbaycançılıq ruhunda tərbiyə olunmasına, ictimai fəallığının artırılmasına yönəldilmişdir.

Prezident İlham Əliyevin ölkədə aparılan kadr islahatları zamanı gənclərə göstərdiyi etimad diqqəti cəlb edir, Dövlət başçısı bununla bağlı demişdir: «Bu günkü gənclər bir neçə ildən solnra Azərbaycanınn bütün idarəetmə sistemində əsas rol oynayacaqlar. Ona görə gəncləri inamla qabağa çəkmək lazımdır, məsul vəzifələrə təyin etmək lazımdır ki, onlar işləsinlər, gözəl təcrübə əldə etsinlər və beləliklə, gələcək fəaliyyəti üçün hazır olsunlar» Bu gün yüksək intellekti və bacarığı ilə seçilən gənclərin dövlət idarəetmə işlərinə cəlb olunması deyilənləri bir daha təsdiqləyir.

Prezident İlham Əliyevin imzaladığı sərəncamla «Azərbaycan gənclərinin İnkişaf Strategiyası» təsdiq edilib. 2015-2025-ci illəri əhatə edəcək bu Strategiya gənclərin intellektual, fiziki və mənəvi inkişafını, ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında fəal iştirakını təmin etmək məqsədi daşıyır. Sözügedən sənəddə Azərbaycan gəncliyinin öhdəsinə düşən vəzifələri həmişə layiqincə yerinə yetirdiyi, ölkədə gedən proseslərin önündə olduğu, gənc nəslin müstəqillik illərində Azərbaycanın ictimai-siyasi, sosial- iqtisadi, mədəni həyatında fəal iştirak etdiyi vurğulanıb. Bununla yanaşı, sənəddə dünyada baş verən qlobal dəyişikliklər və çağırışlar, həmçinin ölkənin yeni inkişaf imkanları diqqətə çatdırılaraq, Azərbaycanda da gənclər siyasətinin yeni strategiyasının hazırlanmasının və qəbulunun zəruriliyi vurğulanıb.

Hazırda Qəbələ rayon əhalisinin təqribən 30 faizini gənclər təşkil edir. Rayonda gənclərin rayonun ictimai-siyasi, iqtisadi və mədəni həyatında fəal iştirakı, sosial problemlərinin həlli və hüquqlarının müdafiəsinin təmin edilməsi istiqamətləri üzrə böyük işlər görülmüşdür. Gənc istedadlara göstərilən qayğının səviyyəsi yüksəlmiş, elm, təhsil, mədəniyyət, dövlət idarəçiliyi və digər sahələrdə gənclərin xidmətlərinin qiymətləndirilməsinə daim diqqət yetirilmişdir. Bu gün Qəbələ gəncliyi də ictimai həyatın bütün sahələrində aktiv fəaliyyəti ilə seçilir, rayonda siyasi, iqtisadi, hümanitar, sosial tədbirlərin həyata keçirilməsində mühüm rol oynayır.

**Aslan CƏLİLOV.**

# Budama işi davam edir

Azərbaycanda 2000-ci ilin əvvəlindən sahibkarlığın inkişafına dövlətin qayğı və diqqətinin nəticəsində yeni iş adamları ortaya çıxdı. Belə iş adamlarından bri də həmyerlimiz Arif Rəhimov oldu. Onun işgüzarlığı və təşəbbüsü ilə Quşlar və Bəyli kəndlərinin ərazisindəki Baba Qəmbər adlanan sahədə 300 hektarda dövlət maliyyə dəstəyi ilə İngiltərə və Fransadan müxtəlif çeşidli üzüm tənəkləri gətirilərək yeni üzüm bağları salındı.

Bağlarda yetişən tənəklərin 200 hektarı süfrə və 100 hektarı isə şərab məhsulları sortudur. Halhazırda hava şəraiti əlverişli olmasa da, bağlarda tənəklərin budama işləri aparılır. İndiyə kimi burada 220 hektar sahədə budama işləri görülüb.

Hazırda bağlara baş aqronom Oqtay Əzizov rəhbərlik edir. Onun əməyi sayəsində üzüm bağlarında mövsümi işlərlə əlaqədar xeyli sayda fəhlə və mexanizatorlar çalışır.

Bu il briqadir və fəhlələrin gərgin əməyi sayəsində bol üzüm yetişdirmək üçün tənəklərdə budama və becərmə işləri aqrotexniki qaydalar əsasında aparılır.

Üzüm bağlarında budama və becərmə işlərində Tənzilə Alışovanın başçılıq etdiyi briqadanın fəhlələri irəlidə gedirlər. Budama və becərmə işində fəhlələrdən Bəxtiyar Muradovun, Malik Məmmədovun, Tehran İsmayılovun, Vəfa İsmiyevanın və digərlərinin əməyi çoxdur. Mexanizatorlardan isə Şirvan Əhmədovun, Sahil Məmmədovun, Tural Qədirovun və başqalarının adını fərəhlə çəkmək olar.

Cörülən işlər ümid verir ki, bu il briqadir və fəhlələrin gərgin əməyi nəticəsində həmin üzüm sahələrindən keçən ildəkindən xeyi çox məhsul əldə ediləcək.

«Aspi-aqro MMC-nin direktoru Əjdər Şəfizadənin təşəbbüsü və təşkilatçılığı ilə üzüm bağlarında işləyən fəhlələr və gecə gözətçiləri üçün müasir tələblərə cavab verən hamam və digər xidmət şəraitləri təşkil olunub. Fəhlələr və mexanizatorlar yaradılmış əlverişli şəraitdən razılıq edirlər.

Bağlarda budama işi davam edir.

**Cələbi DÖNMƏZ.**